# Adı qəlblərdə iftixar mənbəyinə çevrilib



**23 may 1998-ci ildə Cəlilabad rayonu, Ağdaş kəndində anadan olan Alim Davud oğlu Şükürov orta təhsilini başa vuranda öz mərdliyi, vətənsevərliyi ilə el-obada yaxşı ad çıxarıb. Yaxşılardan görüb-götürməklə insan həyatının dəyərini Vətənə, xalqa, el-obaya təmənnasız xidmətdə görüb. Elə onu 22 oktyabr 2020-ci ildə müqəddəs şəhidlik zirvəsinə ucaldan da Vətən torpağının hər qarışına sonsuz sevgisi, xalqının xoşbəxt gələcəyi olub.**

Olduqca qısa bir ömür yolu yaşasa da, yaşının çərçivəsinə sığmayan igidliyi ona milyonların ürəyində yer edib. İndi adı qəhrəmanlıq simvolu kimi insanların qəlbində iftixar mənbəyinə çevrilib. Həmçinin ölümündən sonra layiq olduğu "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", Cəbrayılın, Qubadlının azad olunmasına görə medalları da qəhrəmanlığına şərəf qatır.

Zəfər şəhidimiz Alim Şükürov 2004-2015-ci illərdə Ağdaş kənd tam orta məktəbində təhsil alıb, 2018-ci ildə Cəlilabad Peşə Liseyini uğurla bitirib. Çağırış yaşı çatanda Alim ordu sıralarına yollanıb. 2018-2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində müddətli həqiqi hərbi xidmətdə olduğu vaxtda özünü intizamlı əsgər kimi göstərib, komandirlərin rəğbətini qazanıb. Məhz buna görə də əsgərlik həyatı bitməmiş o, peşəkar sərhədçi olmaq fikrinə gəlib. Sinəsində Vətən üçün döyünən ürək gəzdirən Alim 2020-ci ilin fevral ayından Çevik Hərəkət Qüvvələrinin Artilleriya Briqadasında kəşfiyyatçı kimi xidmətə başlayıb. Mərdlik, dürüstlük, fədakarlıq Alimin xarakterində olub.

Sentyabrın 27-də Vətən müharibəsi başlayanda qəlbində intiqam hissi Alim birincilər sırasında ölüm-dirim savaşına qalxıb. İlk döyüşdə endirdiyi sarsıdıcı zərbələrlə neçə-neçə erməni silahlısını cəhənnəmə vasil edib. Odlardan, alovlardan keçməklə dəfələrlə ölümlə pəncələşib, ancaq Vətənə olan məhəbbəti hər şeyə qalib gəlib. Alimin igidliyi əsgərlər arasında ruh yüksəkliyi yaradıb, şanlı qələbəmizə yollar açıb.

Cəbrayıl və Zəngilan istiqamətində gedən döyüşlərdə uğurla iştirak edən Alim Zəngilan şəhərinin və ətraf ərazilərinin azad olmasında qəhrəmanlıq göstərib. 21 oktyabr 2020-ci il tarixdə Zəngilanda düşmənin 40-dan artıq hərbi qulluqçusunun məhv edildiyi, bir neçəsinin əsir götürüldüyü, darmadağın olunduğu savaşda Alim ağır yaralanıb. Təxliyə olunduğu Füzuli Diaqnostika Mərkəzində təcili cərrahiyə əməliyyatı olunub. Həkimlərin bütün səylərinə baxmayaraq, 22 oktyabr 2020-ci il tarixdə şəhadətə qovuşub. Qəhrəman Vətən oğlu əbədi ömür qazanıb. ■

Respublika .- 2025.- 6 avqust (№ 162).- S.9.